Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Regionların inkişaf strategiyası Azərbaycanı dünya ərzaq böhranından xilas edir

## Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

**Rusiya və Ukrayna arasında yaşanan qarşıdurma dünya iqtisadiyyatına getdikcə daha çox mənfi təsir göstərməkdədir. Artıq bu qarşıdurmanın əsas nəticələrindən biri kimi dünyada enerjidaşıyıcılarının qiymətlərində kəskin artımlar qeydə alınır. Buna paralel olaraq, dünya boyu inflyasiyanın daha sürətlə artması proqnozlaşdırılır.**

Vəziyyəti ağırlaşdıran daha bir məqam Qərb ölkələri və təsisatlarının Rusiyaya qarşı sanksiyalar tətbiq etməsi, rəsmi Moskvanın buna adekvat şəkildə cavab verməsidir. Qarşılıqlı sanksiya və embarqolar qlobal iqtisadi inkişafa mənfi təsir edərək dünya ölkələrinin böyük əksəriyyətinə ziyan vurur.

### Ərzaq qiymətlərində bahalaşma rekord həddə yüksəlir

Ötən ilin ikinci yarısından başlayaraq Avropada və bütün dünyada ərzaq qiymətləri onillik rekordları yeniləyir. Rusiya-Ukrayna savaşı və sanksiyalar fonunda ərzaq qiymətlərinin daha da bahalaşması proqnozlaşdırılır. Bu, ilk növbədə taxıl, un və un məmulatlarına aiddir. İlk növbədə o baxımdan ki, Rusiya dünyanın ən böyük taxıl ixracatçısıdır. İxracda kəsirlər yaranması və ya Rusiya tərəfindən taxıl satışının tamamilə dayandırılması bu məhsulun qiymətində astronomik bahalaşmaya səbəb ola bilər. Daha bir mühüm məqam planetin ərzaq təhlükəsizliyi üçün strateji cəhətdən böyük önəm kəsb edən Qara dəniz hövzəsi ilə bağlıdır. Bu gün Qara dəniz limanları vasitəsilə təkcə Rusiya deyil, Ukrayna, Qazaxıstan və Rumıniya da buğda, arpa, qarğıdalı və günəbaxan ixrac edir. Qara dənizdə ixraca maneə yaradılması ərzaq qiymətlərində rekord ölçülərdə inflyasiyanın qeydə alınmasına gətirib çıxarmaq iqtidarındadır. Bundan başqa, nəzərə alınmalıdır ki, Rusiya həm gübrə istehsalı üçün xammal, həm də gübrələrin əsas təchizatçıdır. Bu məhsulların son dövrlərdə onsuz da Avropada çatışmazlığı qeydə alınırdı. Rusiya gübrə istehsalı üçün xammal və hazır gübrələrin Avropaya nəqlini dayandıracağı halda "köhnə dünya" məhsul qıtlığı və ərzaq qiymətlərində yeni artımlarla üzləşməli olacaq və bu, qlobal miqyasda öz təsirlərini hiss etdirəcək.

Bundan başqa o da etiraf olunur ki, Ukrayna böhranının uzanması qlobal ərzaq təhlükəsizliyi üçün fəlakətli risqlər daşıyır. Bu, ən yoxsul ölkələrə ciddi zərbə vuraraq dünyada ərzaq qıtlığına səbəb ola bilər. Artıq Avropada qorxular var ki, Afrikada aclıq görünməmiş miqrasiyaya səbəb ola bilər. Təbii ki, bu miqrasiyanın son ünvanı da məhz Avropa olacaq. Bu baxımdan, Qərb dünyasında Rusiyaya münasibətdə ticarət məhdudiyyətləri ilə bağlı parçalanmalar və ziddiyyətlər daha da şiddətlənir. Avropada artıq nümayişlərin və anti-sanksiya mitinqlərinin xəritəsini çəkmək mümkündür. Xatırladaq ki, Rusiya ticarət həcminə görə Avropanın beşinci əsas tərəfdaşıdır. Bu fonda Rusiya ilə işbirliyində olan Qərb bankları, biznes qurumları sanksiyalardan ciddi zərər görür. Hazırda Avropanın Rusiyaya ixracı ildə 100 milyard avrodur. Sanksiyalar və embarqolar isə bu həcmin kəskin şəkildə azalması və beləliklə böyük həcmdə iqtisadi itkilərin yaranması deməkdir. Bundan əlavə, Rusiya ərazisində Qərb şirkətlərinin aktivlərini donduracağı və ya müsadirə edəcəyi halda vəziyyət daha da pisləşəcək. Sanksiyalar fonunda Rusiyanın yeni texnologiyalara çıxış imkanları azalır, maliyyə imkanları məhdudlaşır, dollar, avro, funt-sterlinq ilə biznes aparması çətinləşir. Bu, Rusiya, eləcə də onun ticarət, iqtisadi tərəfdaşlarına mənfi təsir edir. Finlandiyanın iqtisadi inkişaf naziri Mika Lintilya etiraf edir ki, Rusiya-Ukrayna savaşı fonunda Avropada ərzaq kompleksi ciddi çətinliklərlə üzləşib. Avropa Komissiyasının təmsilçisi Miriam Qarsia Ferrer isə bildirir ki, aqrar-sənaye sektoru yeni çağırışlarla üz-üzə qalıb: "Biz aqrar-sənaye sektorunda yeni çağırışla üz-üzəyik. Ukrayna və Rusiyanın böyük həcmdə ixrac olunan ərzaq məhsullarının əsas tədarükçüləri olması səbəbindən vəziyyəti və dünyanın ərzaq təhlükəsizliyi üçün nəticələrini izləyirik". Ərzaq böhranını yaxınlaşdıran daha bir səbəb nəqliyyat-logistika problemləridir. Qərb və Rusiyanın hava məkanlarını biri-birinin üzünə bağlaması, Qara dəniz limanlarında və bir sıra ölkələrdə yükdaşımalarla bağlı çətinliklər, dəyər zəncirinin qırılması vəziyyəti daha da ağırlaşdırır.

### Ərzaq istehsalında regionlar xüsusi çəkiyə malikdir

Rusiya-Ukrayna savaşının dünya boyu yaratdığı iqtisadi fəsadların təsirlərinin neytrallaşdırılması Azərbaycan hökumətinin xüsusi diqqət mərkəzindədir. Bu məqsədlə idxal asılılığının azalması, yerli istehsalın müxtəlif yollarla dəstəklənməsi, minimum istehlak səbətinin tərkibində əsas ərzaq məhsulları üzrə özünütəminetmə səviyyəsinin gücləndirilməsi, əhalinin istehlak etdiyi və emal sənayesində istifadə olunan əsas kənd təsərrüfatı məhsullarının istehsalın artırılması və digər istiqamətlərdə önəmli addımlar atılır. Bu xüsusda indi xüsusi diqqət mərkəzində olan məsələlərdən biri də regionların inkişafının daha dinamik xarakter daşımasıdır. Çünki ərzaq istehsalında regionlar xüsusi çəkiyə malikdir.



Ölkəmizdə indi regionların inkişafı hesabına idxal qida məhsullarının yerli istehsalla əvəzlənməsi əsas diqqət mərkəzində yer alır. Həmçinin daxili istehsal həcmi artırılır. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, cari ilin yanvar-fevral aylarında ötən ilin müvafiq dövrü ilə müqayisədə qida məhsullarının istehsalında 14,1 faiz artım qeydə alınıb. Qida məhsullarının istehsalının, dayanıqlı inkişafın bundan sonra da təmin edilməsi məqsədilə iqtisadiyyatın şaxələndirilməsi, onun rəqabət qabiliyyətinin artırılması, makroiqtisadi və maliyyə sabitliyinin qorunması, fiskal dayanıqlığın təmin edilməsi, xərclərin optimallaşdırılması və qənaət rejimində istifadəsi də hökumətin əsas prioritet vəzifələri sırasında yer alır. Bundan başqa, biznes mühitinin yaxşılaşdırılması və struktur dəyişikliklərinin sürətləndirilməsi istiqamətində əməli addımlar atılır. Bütün bunlar regionlarda da indi özünü qabarıq büruzə verir. Məhz regionlarda kənd təsərrüfatı məhsulları istehsalını artırmaqla ərzaq bazarında tələb və təklifin tarazlaşdırılmasına, özünütəminetmə səviyyəsinin artırılmasına və idxaldan asılılığın azaldılmasına nail olunması üçün müvafiq strategiya həyata keçirilir. Əsas hədəf daxili istehsal imkanlarının əhalinin əsas ərzaq məhsullarına tələbatını ödəmək səviyyəsinə çatdırılmasına nail olmaqdır. Zəngin yerli xammal, çoxşəbəkəli sənaye kompleksinin imkanlarının səfərbər edilməsi də bu prosesdə Azərbaycana mühüm üstünlüklər qazandırır. Bütün bunlar həm də onun təsdiqidir ki, regionların sosial-iqtisadi inkişafı ilə bağlı dövlət proqramlarının qəbul edilməsi strateji əhəmiyyətə malik olub Azərbaycanı çətin duruma düşməkdən xilas edir. Ərzaq təhlükəsizliyinin təmin olunması istiqamətində həyata keçirilən ardıcıl islahatlar regionlarda artıq əhəmiyyətli nəticələrin əldə edilməsini şərtləndirib. Regionlarda aqrar sektorun intensiv inkişafı əhalinin ərzaq təminatına etibarlı zəmin yaradır. Eyni zamanda, həyata keçirilən səmərəli siyasət sayəsində ölkənin iqtisadi potensialının artması Azərbaycanda kənd təsərrüfatı sahəsində mövcud olan imkanlardan geniş istifadə edilməsinə, yeni emal müəssisələrinin yaradılmasına münbit zəmin formalaşdırır. Dünyada ərzaq təminatı sahəsində artan çətinliklər fonunda hökumət bu imkan və zəminlərdən daha geniş istifadə edir və bu da Azərbaycana mühüm üstünlüklər qazandırır, ərzaq təhlükəsizliyinə zəruri töhfələr verir.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**